

NATO
OTAN

# NATO-NU TANIYIN?

Əlavə məlumat üçün saytımız:
**www.nato.int**



Şimali Atlantika Müqaviləsi Təşkilatı (NATO) dünyanın ən mühüm beynəlxalq təsisatlarından biridir. Bu siyasi və hərbi Alyans Avropa və Şimali Amerika qitəsinin 30 dövlətini birləşdirir.

Təşkilata üzv ölkələr təhlükəsizlik və müdafiə sahəsində məsləhətləşmələr aparmaq üçün görüşlər keçirir. NATO dünyanın bu iki qitəsi arasında siyasət və təhlükəsizlik sahəsində əməkdaşlığın inkişafında əvəzolunmaz rol oynayır.

## İNSANLARIN MÜDAFİƏSİ

Biz çox zaman təhlükəsiz və iqtisadi cəhətdən sabit mühitdə sərbəst hərəkət etməyi təbii hal kimi qiymətləndiririk. Təhlükəsizlik həyatın bütün sahələrində firavan yaşayışımız üçün əsas şərtdir.

## TƏRƏFDAŞLIĞIN İNKİŞAFI

Dialoq və əməkdaşlığın qurulması dinc münasibətlərin və dərin beynəlxalq anlaşmanın təmin olunması üçün çox vacibdir. Etimad yaratmaq və uzunmüddətli perspektivdə münaqişələrin qarşısının alınmasına yardım etmək məqsədi ilə NATO üzv və tərəfdaş dövlətlərə təhlükəsizlik məsələləri üzrə müzakirə aparmaq imkanı verir. Praktik əməkdaşlıq və çoxtərəfli təşəbbüslər vasitəsi ilə ölkələr yeni təhlükəsizlik çağırışlarına qarşı birgə mübarizə aparırlar.

## YENİ TƏHDİDLƏRLƏ MÜBARİZƏ

Təhdidlərin xarakteri dəyişdiyi üçün sülhün qorunması üsulları da ona uyğun olmalıdır. NATO hazırda mövcud olan təhdidlərə cavab verə bilmək üçün özünün müdafiə bacarıqlarını dəyişir. Təşkilat terrorçuluq, uğursuz dövlətlər və kütləvi qırğın silahları kimi müxtəlif təhlükəsizlik təhdidlərinin öhdəsindən gəlmək üçün öz qüvvələrini müasir tələblərə uyğunlaşdırır və çoxmillətli yanaşmaları inkişaf etdirir.

## SÜLHÜN VƏ SABİTLİYİN QURULMASI

Sabitlikdən bir çox tərəflər eyni zamanda faydalana bilər. Təhlükəsizliyə zərbə vura biləcək gərgin vəziyyətin mövcud olduğu regionlarda sabitliyin təmin olunması çox vacibdir. Buna görə də, NATO digər beynəlxalq təşkilatlarla birlikdə böhranın aradan qaldırılması əməliyyatlarında fəal iştirak edir.



# NATO NƏ EDİR?

NATO-nun əsas vəzifəsi üzv dövlətləri siyasi və hərbi vasitələrlə müdafiə etməkdir. Təşkilat həmçinin üzv olmayan dövlətlərlə müxtəlif təhlükəsizlik məsələləri, o cümlədən müdafiə islahatları və sülhün qorunması sahəsində məsləhətləşmələr aparılmasını və əməkdaşlığı təşviq edir.

NATO müzakirələr və tərəfdaşlıq vasitəsi ilə üzv dövlətlərin sərhədləri daxilində və xaricində münaqişələrin qarşısının alınmasına yardım edir.

Alyans demokratik dəyərləri və mübahisələrin dinc yolla həllini dəstəkləyir. Diplomatik səylər iflasa uğradığı təqdirdə, NATO təklikdə, yaxud digər ölkələr və təşkilatlarla birgə böhranların idarə olunması və sülhməramlı əməliyyatların aparılması üçün lazımi hərbi bacarıqlara malikdir.

NATO-nun fəaliyyətinin üçüncü mühüm istiqaməti fövqəladə hallarda mülki müdafiənin planlanması, müttəfiq və tərəfdaşlara müxtəlif fəlakətlərin öhdəsindən gəlməkdə yardım etmək, eləcə də elm və ətraf mühit sahəsində əməkdaşlığı inkişaf etdirməkdir.

# NATO NECƏ İŞLƏYİR?

Təşkilata üzv olan hər bir dövlətin NATO-nun Brüsseldə yerləşən Mənzil Qərargahında daimi nümayəndəliyi var. Nümayəndəliyə rəhbərlik edən səfir Alyansın məsləhətləşmələrində və qərar qəbul etmə prosesində ölkəsini təmsil edir.

Şimali Atlantika Şurası təşkilatın siyasi qərarlar qəbul edən mühüm siyasi orqanıdır. Bu qurum NATO Baş Katibinin sədrliyi ilə müxtəlif səviyyələrdə görüşlər keçirir. Baş Katib mühüm məsələlərin həllinə dair razılaşmanın əldə olunmasında Şura üzvlərinə yardım edir.

Bütün NATO komitələrində qərarlar konsensus yolu ilə qəbul olunur. "NATO-nun qərarı" bütün üzv ölkələrin kollektiv istəyinin ifadəsidir.

NATO-nun az sayda daimi hərbi qüvvələri var. Şimali Atlantika Şurası hər hansı əməliyyatla bağlı qərar qəbul etdikdə, üzv dövlətlər könüllü əsaslarla hərbi qüvvə töhfəsi verir. Əməliyyat başa çatdıqda, qüvvələr öz ölkələrinə qayıdırlar.

NATO hərbi komandanlıqları əməliyyatların əlaqələndirilməsi və idarə olunmasına məsuldurlar. Komandanlıqların qərargahları və bazaları müxtəlif üzv ölkələrdə yerləşir.

NATO-nun gündəlik fəaliyyəti, mülki və hərbi qurumları, təhlükəsizliyə sərmayə proqramları təşkilatın ümumi büdcəsi hesabına maliyyələşdirilir. Ümumi büdcə üzv dövlətlərin razılaşdırılmış formul üzrə ödədikləri vəsait hesabına formalaşır.




# ÜZV VƏ TƏRƏFDAŞ DÖVLƏTLƏR

**Şimali Atlantika Müqaviləsi 4 aprel 1949-cu ildə imzalanıb.**

### ÜZV DÖVLƏTLƏR (ÜZVLÜYƏ QƏBUL OLUNMA TARİXLƏRİ)

- Albaniya - 2009
- Almaniya - 1955
- Amerika Birləşmiş Ştatları - 1949
- Belçika - 1949
- Birləşmiş Krallıq - 1949
- Bolqarıstan - 2004
- Çexiya Respublikası - 1999
- Danimarka - 1949
- Estoniya - 2004
- Fransa - 1949
- Xorvatiya - 2009
- İslandiya - 1949
- İspaniya - 1982
- İtaliya - 1949
- Kanada - 1949
- Latviya - 2004
- Litva - 2004
- Lüksemburq - 1949
- Macarıstan - 1999
- Monteneqro - 2017
- Niderland - 1949
- Norveç - 1949
- Polşa - 1999
- Portuqaliya - 1949
- Rumıniya - 2004
- Slovakiya - 2004
- Sloveniya - 2004
- Şimali Makedoniya - 2020
- Türkiyə - 1952
- Yunanıstan - 1952

### SÜLH NAMİNƏ TƏRƏFDAŞLIQ (SNT) DÖVLƏTLƏRİ

- Avstriya
- Azərbaycan
- Belarus
- Bosniya and Herseqovina
- Ermənistan
- Finlandiya
- Gürcüstan
- İrlandiya
- İsveç
- İsveçrə
- Qazaxıstan
- Qırğızıstan
- Malta
- Moldova Respublikası
- Özbəkistan
- Rusiya
- Serbiya
- Tacikistan
- Türkmənistan
- Ukrayna

### ARALIQ DƏNİZİ DİALOQU TƏRƏFDAŞLARI

- Əlcəzair
- İordaniya
- İsrail
- Mavritaniya
- Mərakeş
- Misir
- Tunis

### İSTANBUL ƏMƏKDAŞLIQ TƏŞƏBBÜSÜ DÖVLƏTLƏRİ

- Bəhreyn
- Birləşmiş Ərəb Əmirlikləri
- Küveyt
- Qətər

### QLOBAL TƏRƏFDAŞLAR

- Avstraliya
- Əfqanıstan
- İraq
- Kolumbiya
- Koreya Respublikası
- Monqolustan
- Pakistan
- Yaponiya
- Yeni Zelandiya

0351-20 © NATO 2020 - AZE